| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HIST 303 Azərbaycan tarixi-1, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dr. Nurlan Nəsirov |
| | **E-mail:** | nurlan.nasirov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | Bazar ertəsi, çərşənbə |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1. *Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). Red. Prof. Süleyman Əliyarlı. Bakı, 1996.<br>2. *Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək). Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı, 2005-ci il və başqa nəşrlər.<br>3. *Azərbaycan tarixi Yeddi cildlik. Bakı, 2007-2008, I, II, III cildlər.<br>4. Azərbaycan tarixi üzrə qaynaqlar, Süleyman Əliyarlı, Fərman Mahmudovun redak. ilə, Bakı, 2007.<br>5. Azərbaycan tarixi (ali məktəb üçün), M.Q.Abdullayevin redak. ilə.Bakı, 2018-ci il<br><br>**Əlavə Ədəbiyyat:**<br>6. Cəfərqulu Rüstəmov. Qobustan dünyası. Bakı, 1994.<br>7. Solmaz Qaşqay. Manna dövləti. Bakı, 1993.<br>8. Solmaz Qaşqay. Ön Asiyada miqrasiya proseslərinə dair. Bakı, 2009.<br>9. Fəridə Məmmədova. Azərbaycan siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, (IV fəsil, §1-2).<br>10. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2005 ( III fəsil, § 2, §8; V fəsil § 2).<br>11. Ziya Bünyadov. Azərbaycan Atabəylər dövləti (1136-1225). Bakı, | |

<table>
<tr><td></td><td>2007.<br>13. Nailə Vəlixanlı. Ərəb Xilafətli və Azərbaycan. Bakı, 1993.<br>14. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007 I fəsil, II fəsil s.8-36, s.37-40, s.52-53.<br>15. Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti. Bakı, 2011.<br>16. Şahin Mustafayev. Səlcuqilərdən Osmanlılara, Bakı, 2010.<br>17. V.Z.Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.<br>18. Şahin Fərzəliyev. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983.<br>19. Azərbaycan tarixi üzrə farsdilli qaynaqlar. I Cild, Tərcümə və şərhlər. Z.Bayramlı, B.Quliyev. Füyuzat. Bakı, 2025<br>20. Azərbaycan tarixi üzrə farsdilli qaynaqlar. II Cild, Tərcümə və şərhlər. Z.Bayramlı, N.Nəsirov. Füyuzat. Bakı, 2025<br>* işarə ilə göstərilən kitablar və dərsliklər cədvəldə səhifələri göstərilmişdir.</td></tr>
<tr><td>Kursun vebsaytı</td><td>www.azerbaijan.az;<br>www.aztarix.azeriblog.com;<br>www.azerbaycanli.org<br>www.history.az</td></tr>
<tr><td>Kursun təsviri və məqsədləri</td><td>Azərbaycan tarix fənnində ən qədim çağlarından başlayaraq XVIII əsrin 30-cu illərinə qədər olan dövrü tədris edilir. Azərbaycan ərazisin- də ibtidai-icma quruluşuna, ərazimizdə mövcud olmuş qədim insan məskənlərinin təsvirinə, meydana gəlmiş erkən dövlət qurumlarımızdan və ilk dövlətlərdən bəhs olunur. Erkən orta əsrlər dövrünün tədrisində isə Sasani işğalı və hökmranlığına, ərəb ağalığı mövzusunda xilafətin burada yeritdiyi siyasətə aydınlıq gətirilir. (Xüsusi diqqət yetir alban dövrü və onun mədəniyyəti.) Azərbaycanın XI- XIV əsrlər dövrünün öyrədilməsi zamanı Səlcuqların hücumları, Eldənizlər dövlətinin tarixi, monqol yürüşləri, Toxtamış və Teymurun basqınları həmçinin bu kimi problemlərin əsas məqamları anlaşılan şəkildə işıqlandırılır. Vətənimizin XV-XVIII əsrlər mərhələsində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, o zamanın ən möhtəşəm imperiyalarından olan xalqımızın yaratdığı Səfəvilər dövlətinin təşəkkül tapması, bu dövlətlərin Azərbaycanın siyasi tarixində oynadığı mütərəqqi rola xüsusi diqqət yetirilir.</td></tr>
<tr><td>Tədris nəticələri</td><td>Fənnin ümumi tədrisi prosesində tələbələrdə:<br>- Azərbaycan tarixi haqqında bitkin, dolğun və obyektiv təsəvvür yaranacaq<br>- Azərbaycanın qədim dünya sivilizasiyasının ocaqlarından biri və Şərq dünyasının ayrılmaz hissəsi olmağı haqda məlumatları daha da genişlənəcək<br>- Azərbaycan etnosunun təkraredilməz və avtoxton olduğuna dair geniş təsəvvür yaranacaq<br>- Vətən tarixinə, mədəniyyətinə, mənəvi dəyərlərinə sevgi və hörmət hissini daha da artıracaq və vətənpərvərlik ruhunu daha da yüksəldəcəkdir<br>Qazanılmış təcrübə<br>- tarixi hadisələrin analizi<br>- tarixi hadisələrə tənqidi və obyektiv yanaşma<br>- Azərbaycanın mədəni-tarixi inkişaf mərhələlərinin araşdırılması və Azərbaycanın müasir dövrdə dünya miqyasında rolu və yerinin müəyyənləşdirilməsi.</td></tr>
<tr><td>Tədris metodları</td><td><table><tr><td>Mühazirə</td><td>X</td></tr><tr><td>Qrup müzakirəsi</td><td>X</td></tr></table></td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | **Praktiki tapşırıqlar** | **X** | |
| | **Praktiki məsələnin təhlili** | **X** | |
| | **Digər** | **X** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%), bal** |
| | **Yazı işi (prezentasiya şəklində) və onun təqdimatı. (Mövzuların siyahısı sillabusun son səhifəsində əlavə olunub.)** | **Noyabr ayının sonundan dekabr ayının on beşinə kimi.** | **10 bal** |
| | **Yoxlama yazı iş (quiz)** | **Aralıq imtahanı öncə<br>Final imtahanı öncə** | **20 bal (10+10)** |
| | **Aralıq imtahanı** | **Noyabr** | **30 bal** |
| | **Final imtahanı** | **Yanvar** | **40 bal** |
| | **Yekun** | | **100 bal** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbə müəyyən üzrlü səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərdə iştirak edə bilmirsə, o zaman bu haqda fakültə dekanlığına məlumat təqdim etməlidir. Fənn üzrə ümumi dərs saatlarının 25 faizdən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər.<br>**Yazı işinə aid qaydalar**<br>1. İş ayrıca vərəqlərdə yazılmalıdır. Kağızın formatı A4, şrifti 14, interval 1, işin həcmi 10-15 səhifə olmalıdır.<br>2. Vərəqin bir üzü yazılmalı, vərəqə nömrələr qoyulmalıdır.<br>3. İş aydın yazılmalı, fikirlərin abzaslara bölünməsi məntiqi olmalıdır, hər yeni fikirdə abzasdan istifadə edilməlidir. İşin girişi və nəticəsi olmalıdır.<br>4. İş yazılarkən mənbələrə istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır.<br>5. Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir.<br>6. İşin titul vərəqi olmalıdır: mövzunun adı, tələbənin adı, soyadı, fakültəsi, işin yerinə yetirildiyi departament göstərilməlidir.<br><br>Yazı işi (yazılı şəkildə): təhvil vermə tarixi-noyabr ayının sonundan dekabr ayının on beşinə kimi. Göstərilən vaxtan sonra iş qəbul olunmur. (Mövzular əlavə olunub).<br>Qeyd: Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir.<br>**Yoxlama işi**<br>Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzrlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda | | |

dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini növbəti həftə yaza bilər.

**İmtahanlar**

Aralıq imtahanı: Sentyabr və oktyabr ayında "Azərbaycan qədim dövrdən-b.e. XI-XII əsrin mövzularını əhatə edir. İmtahanın keçirilmə üsulu: Test və açıq suallar

Final imtahanı XII əsrdən-XVIII birinci yarısında kursun mövzuları əsasında keçirilir. İmtahan keçirilmə üsulu:Test və açıq suallar

Aralıq və yekun imtahaının mövzuları tələbələrə imtahandan əvvəl verilir. Aralıq imtahanın sualları yekun imtahanında təkrarlanmır.

**İmtahan qaydalarının pozuntuları**

Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur. Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürülmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına uyğun olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 və daha çox+ hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Tələbələrin Davranış qaydaları**

Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr qadağandır.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | **19.09. 2025** | **Giriş. Azərbaycan qədim və orta əslər tarixinin əsas qaynaqları.** Azərbaycan tarixi nədən bəhs edir? Azərbaycan tarixi anlayışı, kursun quruluş və dövrləşdirmə prinsipləri. Qaynaqlar. Tarixşünaslıq. Azərbaycan tarixinin öyrənilməsindəki təlim prosesindəki çətinliklər. Tarixi biliklər sistemində Azərbaycan tarixi fənninin iş proqramı və onların qarşısında duran vəzifələri ilə tanış etmək. | 2, s. 54, Cild 1, s. 6-38 |
| 2 | **26.09. 2025** | **Azərbaycan ərazisində ibtidai icma quruluşu.** Azərbaycanın təbii-coğrafi şəraitinin təşəkkülü. Azərbaycan ən qədim insan məskənlərindəndir. Azərbaycanda qədim daş dövrü insanlarının düşərgələri. Azıx mağarası. Orta və yuxarı paleolit dövrü və maldarlıq abidələri. Mezolit və neolit. Metal ilə tanışlıq. Kür-Araz mədəniyyəti. Orta Tunc dövrü. Naxçıvan və Üzərliktəpə mədəniyyəti. Son tunc və Erkən Dəmir dövrü (e.ə XIV-VII yüzilliklər). Xocalı-Gədəbəy, Naxçıvan Talış-Muğan mədəniyyətləri. | 1, s. 8-33<br>2, s. 20-60<br>4, Cild 1, s. 53-175 |

| | | | |
|---|---|---|---|
| 3 | 03.10.<br>2025 | **Azərbaycan ərazisində ilk dövlətlər.** E.ə III-II minillikdə Azərbaycan ərazisində tayfalar və ilkin tayfa birlikləri. Azərbaycanın etnosiyası xəritəsi. Urmiya gölü hövzəsində ilk dövlət qurumları. **Lullubi, Kuti, Turukki və b.**<br>**Manna dövləti**. Manna dövlətinin yaranmasının ilkin şərtləri. Assuriya və Urartu ilə münasibətlər. Kimmer, skif, iskit-sak tayfalarının Azərbaycana yürüşləri. Manna-iskit ittifaqı. Manna dövlətinin süqutu. Manna, Midiya və Əhəməni imperatotluğunun tərkibində. Manna dövlətinin quruluşu. İqtisadi həyat. Mədəniyyət.<br>**Atropatena və Alban dövlətləri.** Atropatena dövlətinin yaranması. Atropatlar sülaləsi. Selevk, Parfiya, və Romanın Atropatenada mübarizəsi. Sosial-iqtisadi vəziyyət. Din. "**Avesta".** Mədəniyyət.<br>**Qafqaz Albaniyası (e.ə IV-II yüzillikdə).** Əhalisi və ərazisi. Antik müəlliflər albanlar haqqında. Maddi- mədəniyyət abidələri. Respublikada və Qarabağda gedən arxeoloji işlər.<br>**Alban dövlətinin yaranması**. Parfiya və Romanın Albaniya uğrunda mübarizəsi. Albaniyada iqtisadı həyatı. Şəhərlər və ticarət. Albanların dini təsəvvürləri. | 1, s. 34-50<br>2, s. 64-91<br>4, Cild 1, s. 176-184<br><br>1, s. 51-76<br>2, s. 91-125<br>4, Cild 1, s. 187-270<br><br>1, s. 77-90<br>2, s. 137-151<br>4, Cild 1, s. 237-356<br><br>1, s. 91-100<br>2, s. 152-177<br>4, Cild 1, s. 357-452 |
| 4 | 10.10.<br>2025 | **Atropatena və Albaniya (III-VII yüzilliklər**). Feodal münasibətlərin meydana gəlməsi və inkişafı. (tatixşünaslıqda diskussiyalar) Azərbaycanda feodalizmin əsas xüsusiyyətləri. Sasani dövləti və Azərbaycan. Sasanilərin Atropatenanı istila etməsi. Albaniyanın Sasanilərdən asılı vəziyyətə düşməsi. Alban hökmdarları və onların Sasanilərlə münasibətləri. V əsrdə Sasanilərə qarşı üsyan. Aluen kilsə məclisi.( Xristianlığın yayılması, istiqamətləri , dövlət dini kimi elan edilməsi) | 1, s. 110-129<br>4, Cild II, s.68-88; 117-148<br>2, s. 178-217<br>2, s. 145-158 |
| 5 | 17.10.<br>2025 | **Azərbaycan Ərəb xilafətinin tərkibində**. Ərəb xilafətinin meydana gəlməsi və işğalçılıq siyasətinin başlanması. Alban hökmdarı Cavanşirin siyasəti: Sasanilər, Xilafət ya Bizans. Ərəb xilafətinin Azərbaycanı tabe etməsi. Alban sülaləsinin hakimiyyətinə son qoyulması. Ərəb ağalığı. İnzibati idarə sistemi. İqtisadi siyasət. Köçürmə. İslamın yayılması. Xilafətə qarşı mübarizə. Xürrəmilərin təlimi, tarixi kökləri, hərəkətverici qüvvələri, ideologiyası.<br>Azərbaycan xalqının formalaşması prosesi: əsas mərhələləri və başa çatması. | 1, s. 130-203<br>4, Cild II, s. 259-279<br>10, III fəsil, §. 2, §. 8; V fəsil, §. 22, s. 245-283 |
| 6 | 24.10.<br>2025 | **IX yüzilliyin ikinci yarısı-XI yüzilliyin birinci yarısında Azərbaycan feodal sülalələr.** Şirvanşahlar dövləti. Saci və Salari dövlətləri, Rəvvadi və Şəddadi dövlətləri. | 1, s. 204-213<br>2, s. 284-300<br>4, cild II, XIfəsil, |

| | | | |
|---|---|---|---|
| | | **Azərbaycan Səlcuq imperiyasının tərkibində.** Azərbaycanda Oğuz türklərinin yayılması. Oğuznamələr Oğuz türklərinin tarixi qaynaqları kimi. | s. 311-386<br>1, VIII bölüm,s.214-217 |
| 7 | **31.10. 2025** | **Azərbaycan Atabəyləri sülaləsinin yaranması, yüksəlişi və tənəzzülü**. Azərbaycan Atabəylərinin daxili və xarici siyasətinin əsas istiqamətləri. Azərbaycanın iqtisadi dirçəlişi.<br>**Şirvanşahlar sülaləsi XII-XIII əsrin əvvələrində**. Kəsranilər sülaləsi hakimiyyəti başında.<br>XI-XIII əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi münasibətlər.<br>Azərbaycan intibah mədəniyyəti. Maarif, elm, ədəbiyyat, memarlıq, dekorativ və tətbiqi sənət.<br>**ARALIQ İMTAHANI** | 1, VIII bölüm, s.217-270;<br>4, cild II, s.485-553 |
| 8 | **07.11. 2025** | **Azərbaycan XIII-XIV əsrlərdə.**. Azərbaycana monqol- tatar yürüşləri və onların nəticələri.<br>Azərbaycan İlxanlılar (Hülakular) dövlətinin tərkibində.<br>İlxanlıların tənəzzülü və Çobani feodallarının özbaşınalığı. Azərbaycan Cəlairilər dövlətinin tərkibində. | 1, IX bölüm, s.271-299<br>4, cild III, I fəsil, s. 15-82 |
| 9 | **14.11. 2025** | **Azərbaycan XIV əsrin sonu- XV əsrin əvvəllərində.** Şirvanşahlar dövləti Dərbəndlilər sülələsinin dövründə. I İbrahimin siyasəti. Toxtamışın və Əmir Teymurun Azərbaycana yürüşləri. Hurufilik. | 1, X bölüm, s.300-312<br>4, cild III, I fəsil, s.46-51 |
| 10 | **21.11. 2025** | **Azərbaycan XIV yüzilliyin sonu – XV yüzilliklərdə.** Qaraqoyunlu türkman sülaləsinin ortaya çıxması.Qaraqoyunlularının Teymurilərlə və Ağquyunlularlaqarşılıqlı münasibətləri.<br>Ağqoyunlu türkman sülaləsinin ortaya çıxması və inkişafı. Ağqo- yunlu dövlətinin xarici siyasəti. Teymurilər və Osmanlı dövləti ilə mübarizə.<br>Səfəvilərin Ərdəbil hakimliyi. | 1, X bölüm, s.313-332<br>4, cild III, III fəsil, s. 83-118 |
| 11 | **28.11. 2025** | **Azərbaycan XVI yüzilliyin əvvələrində**<br>XV yüzilliyin sonu-XVI yüzilliyin əvvəllərində Azərbaycanın vəziyyəti. Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsində sosial-siyasi bidətçiliyin yeri Qızılbaş təlimi.<br>Səfəvilərin Şirvana yürüşü. Bakının tutulması. Ağqoyunlu dövləti ilə müharibə. Ağqoyunlu dövlətinin süqutu. Azərbaycan Səfəvilər dövlətinin yaranması.<br>I Şah İsmayılın daxili və xarici siyasəti. Dövlətin ərazisinin genişlənməsi. Osmanlı Şeybanilər və Avropa dövlətləri ilə münasibətləri. Şah İsmayil Xətainin Azərbaycan tarixində rolu. | 1, XVII bölüm, s.364-383<br>4, cild III, VIfəsil, s. 200-215 |
| 12 | **05.12. 2025** | **Azərbaycan Səfəvi dövləti XVI əsrin 30-cu illəri- XVI əsrin sonu.** I Şah Təhmasibin mərkəzləşdirmə siyasəti. Şirvanın və Şəkinin | 1, XII bölüm, s.383-398;<br>XIII bölüm, |

| | | | |
|---|---|---|---|
| | | Səfəvilərə tabe edilməsi. Dövlətin inzabati quruluşu. Səfəvi-Osmanlı müharibələrinin davam etdirilməsi; bu müharibələrin Azərbaycana zərbəsi. Azərbaycanın Osmanlı tərəfindən tutulması.<br>XVI yüzillikdə Azərbaycanın sosial-iqtisadi həyati. Kənd təsərrüfatı. Şəhərlər. Sənətkarlar. Ticarət. Pul dövriyyəsi. Mədəniyyət. Ədəbiyyat. Dastan ədəbiyyatı. Aşıq poeziyası. Elm. Tarixşünaslıq. İncəsənət, memarlıq. | s.425-459.<br>4, cild III, VIfəsil, s. 215-262 |
| 13 | **12.05. 2025** | **Azərbaycan XVI yüzilliyin sonu – XVII yüzillikdə.**<br>Səfəvilər dövlətinin zəifləməsi və onun səbəbləri.<br>I Şah Abbasın hakimiyyətə gəlməsi və onun islahatları. Səfəvi dövlətin yenidən güclənməsi.<br>XVII yüzilliyin birinci yarısında Səfəvi-Osmanlı müharibələri və Azərbaycan.<br>XVII yüzilliyin ikinci yarısında Azərbaycanın siyasi vəziyyəti. Sosial-iqtisadi həyatı. Xəzər dənizinin rolunun xarici ticarətdə artması. Stepan Razinin Azərbaycana basqını. | 1, XII bölüm, s.399-424<br>4, cild III, VIII fəsil, s. 263-323 |
| 14 | **19.12. 2025** | **Azərbaycan XVIII yüzilliyin birinci yarısında.**<br>Səfəvi dövlətinin tənəzzülü. Azərbaycanda xalq azadlıq hərəkatının güclənməsi. Şirvan üsyanı.<br>Çar Rusiyasının Şərq siyasəti. I Pyotrun işğalçılıq planları. Onun Xəzəryanı bölgələrə basqını və işğalı Çarizmin Xəzəryanı bölgələrdə iqtisadi siyasəti.<br>Türkiyə qoşunlarının Cənubi Qafqaza yürüşü. Xəzəryanı vilayətlər istisna olmaqla Azərbaycan torpaqları Osmanlı hakimiyyəti altında.<br>Xarici işğalçılara qarşı xalq mübarizəsi. | 1, XIV bölüm, s.460-483<br>4, cild III, fəsilXI, s.380-406. |
| 15 | **26.12. 2025** | **XIII yüzilliyin 30-40-ci illərində Azərbaycanda vəziyyət.**<br>Azərbaycan ərazisində Səfəvi-Osmanlı müharibələri. 1732-ci il Rəşt və 1735-ci il Gəncəmüqavilələri.<br>Səfəvi dövlətinin süqutu və Nadirin İran şahı elan edilməsi. Azərbaycan Nadir şah hökmranlığı dövründə.<br>XVIII yüzilliyin 40-cı illərində Xəzər hövzəsində ingilis-rus rəqabəti. Azərbaycan İran zülmü və ona qarşı üsyanlar. | 1, XIV bölüm, s.483-496<br>4, cild III, XIfəsil, səhifə 406-429 |
| | | **FİNAL İMTAHANI** | |